# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**"Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nın və "Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği"nin təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 iyun tarixli 111 nömrəli Fərmanının 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş

mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği” təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulan maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 sentyabr 2024-cü il

№ 407

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 6 sentyabr
tarixli 407 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**
**1 nömrəli əlavə**

# Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi

# Q A Y D A S I

## 1. Ümumi müddəa

Bu Qayda Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin 59-cu maddəsinə əsasən hazırlanmışdır və gömrük orqanlarının vəzifəli şəxslərinin (bundan sonra - vəzifəli şəxs) və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi qaydasını müəyyən edir.

## 2. Yeni qulluq yerinə köçmə, habelə əmlakın daşınması xərclərinin və birdəfəlik kompensasiyanın məbləğləri

2.1. Vəzifəli şəxsə və onun ailə üzvlərinə yeni qulluq yerinə köçməsi ilə əlaqədar aşağıdakı xərc və kompensasiyalar ödənilir:

2.1.1. yeni qulluq yerinə köçməsi ilə əlaqədar nəqliyyat xərci;

2.1.2. yolda olan müddət üçün gündəlik xərc;

2.1.3. əmlakın daşınması üçün nəqliyyat xərci;

2.1.4. vəzifəli şəxsə birdəfəlik kompensasiya;

2.1.5. vəzifəli şəxsin ailə üzvlərinə birdəfəlik kompensasiya.

2.2. Bu Qaydanın 2.1-ci bəndində göstərilən xərc və kompensasiyalar (50 kilometrdən çox yol qət etmək şərtilə) bir yaşayış məntəqəsindən digər yaşayış məntəqəsinə daimi qulluq yerinə getməsi üçün vəzifəli şəxsə və onun ailə üzvlərinə aşağıdakı hallarda ödənilir:

2.2.1. bir gömrük orqanında olan ştat vəzifəsindən digər gömrük orqanının ştat vəzifəsinə təyin edilərsə;

2.2.2. gömrük orqanının daimi dislokasiya yeri dəyişərsə;

2.2.3. gömrük orqanlarında xidmət keçmək üçün ştat vəzifəsinə yeni təyin olunarsa.

2.3. Vəzifəli şəxsə və onun ailə üzvlərinə yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması ilə əlaqədar nəqliyyat xərcləri və birdəfəlik kompensasiyalar aşağıdakı məbləğdə ödənilir:

2.3.1. vəzifəli şəxsə və onun ailə üzvlərinə yeni qulluq yerinə köçməsi ilə əlaqədar nəqliyyat xərcləri - ümumi istifadədə olan hava, dəmiryol, su və avtomobil (taksidən başqa) nəqliyyatı ilə gediş haqqı məbləğində (biletlərin qabaqcadan satışı üzrə xidmət və qatarlarda yataq ləvazimatından istifadə üçün xərclər də daxil olmaqla);

2.3.2. vəzifəli şəxsə yerdəyişmə və ya vəzifəyə təyin olunma zamanı (50 kilometrdən artıq məsafə qət edilərsə) birdəfəlik kompensasiya - yeni təyin olunduğu vəzifə üzrə bir aylıq vəzifə maaşı və bir aylıq xüsusi rütbəyə görə əlavə haqq məbləğində;

2.3.3. vəzifəli şəxsə gömrük orqanının daimi dislokasiya yerinin dəyişməsi ilə əlaqədar yerdəyişmə zamanı (məsafədən asılı olmayaraq) birdəfəlik kompensasiya - bir aylıq vəzifə maaşının və bir aylıq xüsusi rütbəyə görə əlavə haqqın 50 faizi məbləğində;

2.3.4. vəzifəli şəxsin ailə üzvlərinin hər birinə birdəfəlik kompensasiya - vəzifəli şəxsin bir aylıq vəzifə maaşının və bir aylıq rütbəyə görə əlavənin 25 faizi məbləğində;

2.3.5. vəzifəli şəxsə 3000 kiloqramadək əmlakın daşınması üçün - müvafiq yükdaşıma müəssisələrinin müəyyən etdiyi tariflərə uyğun məbləğdə.

2.4. Qulluq yerini dəyişmə və ya vəzifəyə təyin olunma ilə əlaqədar bir yaşayış məntəqəsindən digər yaşayış məntəqəsinə gedərkən, vəzifəli şəxsə və onun ailə üzvlərinə yolda olduğu bir sutkalıq müddət üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş xidməti ezamiyyətlər zamanı ödənilən gündəlik xərc normaları məbləğində vəsait verilir.

## 3. Yeni qulluq yerinə köçmə, habelə əmlakın daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi

3.1. Yerdəyişmə və ya vəzifəyə təyin olunma ilə əlaqədar bir yaşayış məntəqəsindən digər yaşayış məntəqəsinə getmək üçün 50 kilometrdən çox yol qət edərkən vəzifəli şəxsə və onun ailə üzvlərinə bu Qayda ilə müəyyən edilmiş normalar üzrə yola çəkilmiş faktiki xərc ödənilir.

3.2. Vəzifəli şəxsə birdəfəlik kompensasiya yeni təyin olunduğu iş yerindəki bir aylıq vəzifə maaşından və bir aylıq xüsusi rütbəyə görə əlavə haqdan hesablanır. Onun ailə üzvlərinə isə birdəfəlik kompensasiya köçüb gəldikləri günə vəzifəli şəxsin aldığı bir aylıq vəzifə maaşından və bir aylıq xüsusi rütbəyə görə əlavə haqdan hesablanır.

3.3. Vəzifəli şəxsə və onun ailə üzvlərinə yeni qulluq yerinə köçməsi və əmlakının daşınması ilə əlaqədar nəqliyyat xərclərinin ödənilməsi üçün ərizə (raport), yeni qulluq yerinə köçməsini və əmlakının daşınmasını təsdiq edən sənədlər (təyin olunma barədə

əmrin (sərəncamın) surəti, göndəriş vərəqəsi, nəqliyyat vasitələrindən istifadə biletləri, yükdaşıma qəbzləri) təqdim edilməlidir.

3.4. Vəzifəli şəxsin və onun ailə üzvlərinin yeni qulluq yerinə köçməsi və əmlakının daşınması ilə əlaqədar nəqliyyat xərclərinin ödənilməsi üçün bu Qaydanın 3.3-cü bəndində göstərilən sənədlər təqdim edilmədiyi (və ya şəxsi avtomobillə yeni qulluq yerinə getdiyi) hallarda, həmin xərclər hava, su, dəmiryol və avtomobil nəqliyyatı ilə gedişə və yükün daşınmasına görə müəyyən edilmiş ən aşağı qiymətlərə uyğun olaraq ödənilir.

3.5. Birdəfəlik kompensasiya vəzifəli şəxsin ərizəsi (raportu), təyin olunması barədə əmrin (sərəncamın) surəti, ailə üzvlərinin köçüb gəlmələri və yeni ünvanda qeydiyyata alınmaları barədə arayış və ya kirayə müqaviləsi əsasında verilir.

3.6. Vəzifəli şəxsin ailə üzvlərinə birdəfəlik kompensasiya yeni vəzifəyə təyin edildiyi və ya dislokasiya yerinin dəyişdiyi gündən bir il müddətində vəzifəli şəxsin ailəsi köçüb onun qulluq yerinə gələrkən (əgər vəzifəli şəxs yeni xidmət yerində mənzillə təmin olunmamışdırsa və yaxud uşaqları ali, orta ixtisas, peşə təhsili müəssisələrinin əyani şöbəsində və tam orta ümumtəhsil məktəblərinin axırıncı siniflərində oxuyursa, mənzillə təmin edildiyi və uşaqların təhsil müəssisələrini bitirdiyi gündən bir il müddətinə) ödənilir.

3.7. Birdəfəlik kompensasiya vəzifəli şəxsin onunla birlikdə yaşayan aşağıdakı ailə üzvlərinə ödənilir:

3.7.1. yaşından və əmək qabiliyyətindən asılı olmayaraq arvadına (ərinə);

3.7.2. uşaqlarına (bu Qaydanın 3.6-cı bəndi nəzərə alınmaqla) və 18 yaşdan yuxarı əlilliyi olan övladlarına;

3.7.3. pensiya yaşına çatmış və ya yaşından asılı olmayaraq əlilliyi olan valideynlərinə.

3.8. Vəzifəli şəxsə və onun ailə üzvlərinə yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərcləri və birdəfəlik kompensasiya ştat vəzifəsinə təyin edildiyi yerdə, gömrük orqanının daimi dislokasiya yeri dəyişdiyi hallarda isə yeni dislokasiya yerində ödənilir.

3.9. Birdəfəlik kompensasiya vəzifəli şəxsin qulluq yerinə müvəqqəti olaraq gələn ailə üzvlərinə ödənilmir.

3.10. Yerdəyişmədən və ya vəzifəyə təyin olunduqdan sonra vəzifəli şəxs yeni qulluq yerində qulluğa başlamaqdan imtina etdiyi hallarda onun özünə və ailə üzvlərinə bu məqsədlə ödənilmiş bütün xərclər geri qaytarılmalı və ya həmin şəxsin pul təminatından tutulmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 407 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**
**2 nömrəli əlavə**

# Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği

## 1. Ümumi müddəa

Bu Qayda Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 59-1-ci maddəsinə əsasən hazırlanmışdır və gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə (bundan sonra - vəzifəli şəxs) və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi qaydasını və məbləğini müəyyən edir.

## 2. Mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği

2.1. Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan vəzifəli şəxslərə qulluq keçdiyi dövr ərzində yaşayış məntəqəsindən asılı olaraq mənzil kirayəsi üçün pul kompensasiyası hər ay aşağıdakı məbləğlərdə ödənilir:

2.1.1. Bakı şəhərində - 150 manat;

2.1.2. Gəncə, Naxçıvan, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunda - 100 manat;

2.1.3. başqa şəhər və rayon mərkəzlərində - 75 manat;

2.1.4. digər yaşayış məntəqələrində - 55 manat.

2.2. Bu Qaydanın 2.1-ci bəndində qeyd olunan vəzifəli şəxsə onun hər bir ailə üzvünə görə həmin bənddə nəzərdə tutulan müvafiq kompensasiyaların 50 faizi məbləğində hər ay əlavə pul kompensasiyası ödənilir.

2.3. Bu Qaydanın 2.1-ci və 2.2-ci bəndləri ilə müəyyən edilən ödənişlər "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## 3. Mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi

3.1. Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan vəzifəli şəxslərə və onların ailə üzvlərinə vəzifəli şəxsin qulluq keçdiyi dövr ərzində mənzil kirayəsi üçün pul kompensasiyası aşağıdakı sənədlər əsasında ödənilir:

3.1.1. vəzifəli şəxsin ərizəsi (raportu);

3.1.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin ərazi idarələri tərəfindən vəzifəli şəxsin qulluq keçdiyi müvafiq gömrük orqanının yerləşdiyi ərazidə onun və yetkinlik yaşına çatmış ailə üzvlərinin mülkiyyətində mənzilin (yaşayış sahəsinin) olub-olmaması haqqında verilən arayış;

3.1.3. mənzilin kirayə götürülməsi barədə notariat qaydasında təsdiq edilmiş müqavilə;

3.1.4. vəzifəli şəxsin və onun ailə üzvlərinin şəxsiyyət vəsiqəsinin, nikah haqqında şəhadətnamənin (evli olduğu halda), 15 yaşına çatmamış uşaqlarının doğum haqqında şəhadətnamələrinin surəti.

3.2. Pul kompensasiyası üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar vəzifəli şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vəzifəli şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vəzifəli şəxs tərəfindən təmin edilir.

3.3. Yeni qulluq yerinə gəlmiş vəzifəli şəxs kirayədə yaşaması barədə ərizə (raport) ilə müraciət edərkən bu Qaydanın 3.2-ci bəndinin tələbləri nəzərə alınmaqla bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş sənədləri təqdim etməlidir. Mənzil kirayəsi üçün pul kompensasiyası mənzilin kirayə götürülməsi barədə müqavilənin imzalandığı gündən hesablanmaqla, lakin yeni vəzifəyə təyin edilmə günündən tez olmayaraq, gömrük orqanının rəhbərinin bu barədə əmrindən sonra ödənilir.

3.4. Bu Qaydanın 3.2-ci bəndinin tələbləri nəzərə alınmaqla, bu Qaydanın 3.1-ci bəndi ilə müəyyən edilmiş sənədlər hər il yenidən toplanaraq təqdim edilməlidir.

3.5. Vəzifəli şəxsin ailə tərkibində dəyişikliklər baş verərsə, bu barədə həmin şəxs tərəfindən rəhbərliyə məruzə edilməli və pul kompensasiyası ilə bağlı müvafiq sənədlər bu Qaydanın 3.2-ci bəndinin tələbləri nəzərə alınmaqla təqdim edilməlidir.

3.6. Mənzil kirayəsi üçün pul kompensasiyası vəzifəli şəxsin kirayə üçün faktiki ödədiyi haqq məbləğində, lakin bu Qaydanın 2-ci hissəsi ilə müəyyən edilmiş məbləğlərdən artıq olmamaq şərtilə ödənilir.

3.7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən xidməti yaşayış sahəsi ilə (digər yaşayış sahəsi ilə) təmin edilmiş vəzifəli şəxslərə mənzil kirayəsi üçün pul kompensasiyası ödənilmir.

№-li nüsxə